# "TÜRKİYƏ YÜZİLLİYİ" BAŞLADI:

# Gün bir olmaq, bərabər olmaq, min illik qardaşlığımızı daha da möhkəmləndirmək günüdür





**May ayının 28-də demokratik, azad və şəffaf şəkildə keçirilən prezident seçkilərinin ikinci turunda 52,16 faiz, təxminən 27 milyon 500 min səs qazanaraq qardaş Türkiyə Cümhuriyyətinin 13-cü Prezidenti seçilən Rəcəb Tayyib Ərdoğan mayın 29-da Ankarada meydana toplaşan minlərlə seçicisinə öz minnətdarlığını bildirib:**

*"Prezident seçkilərinin ikinci turunu başa vurduq. İki bayram arasında bizə demokratiya günü yaşadan millətimə minnətdarlığımı bildirirəm. Millətimizin hər iradəsi kimi bu nəticənin də başımızın üstündə yeri var. Qalib yalnız biz deyilik. Qazanan Türkiyə, qazanan bizim demokratiyadır. Bu gün heç kim itirmədi, 85 milyonun hamısı qazandı. İndi milli məqsədlərimiz və milli arzularımız ətrafında birləşmək və inteqrasiya etmək vaxtıdır".*







Mayın 28-də türk xalqı demokratiya sınağından uğurla çıxdı. Məhz o gün güclü demokratiya ənənəsinə sahib olan qardaş ölkənin demokratiya inancına sıx bağlı olan vətəndaşları Türkiyənin aydın, işıqlı və firavan gələcəyinə səs verdilər.

Təbii ki, Rəcəb Tayyib Ərdoğanın rəhbərliyi ilə qardaş Türkiyə ötən 21 il ərzində böyük inkişaf yolu keçib. Bütün bunların təzahürü olaraq yüksək siyasi mədəniyyət nümayiş etdirən türk ictimaiyyəti öz liderinə yenidən etimad göstərib.

Həmin günlərdə Almaniyanın ZDF dövlət telekanalında Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın xarici siyasətinin müzakirəsi maraqlı detalları ilə diqqəti çəkib. Müzakirə zamanı bildirilib ki, haradasa güc nöqtəsi formalaşanda bunu Ərdoğandan başqa heç kimin hiss etmə qabiliyyəti yoxdur: "Bir yerə girmək şansı varsa, orada olur. Bu gün Suriyada, İraqda, Liviyada, Azərbaycanda, Ukraynada vəziyyət belədir. Türk PUA-ları hər yerə uçurlar. Yeni Ərdoğan hər yerdədir".







Xristian Demokratik Birliyi Partiyasının deputatı və Bundestaqın Xarici Siyasət Komitəsinin sədri Norbert Röttgen də bu fikirlərə haqq qazandırıb: "Həqiqətən də belədir və Türkiyənin dəstəklədiyi Azərbaycanın müharibədə Rusiyanın dəstəklədiyi Ermənistana qarşı istifadə etdiyi türk PUA-ları prosesdə böyük rol oynadı. Bölgəyə hərtərəfli baxdıqda, Ərdoğanın davamlı, balanslı fəaliyyət göstərdiyi çox böyük bir sahədir. Məsələn, Liviya. Orada da aktivdir. Təbii qaz axtarma işlərini də həyata keçirir. Liviya hökuməti ilə müqavilələr bağlayıb. Bu, o deməkdir ki, onun həm də bir enerji siyasəti var. Böyük bir regional siyasəti var: Kipr problemi, Yunanıstan, Qafqaz, Azərbaycan, Suriya və Rusiya siyasəti. Ondan sonra gələnlərin orada nələrisə dəyişdirməyə yeri olmayacaq, hər şeyi tarazlıqda saxlayır. Mükəmməl formada tarazlıq yaradır. Eyni zamanda, Türkiyə uzun müddətdir, NATO üzvüdür. NATO-nun ikinci güclü ordusuna malikdir və Rusiya ilə də sıx iqtisadi əlaqələri var. Yeni Türkiyə Avropa İttifaqının və ya Qərbin Rusiyaya qarşı sanksiyalarında yer almır. Əksinə, Türkiyə və türk şirkətləri önəmli bir mərkəzdir".

Həmçinin qeyd edilib ki, eyni zamanda, taxıl dəhlizi müqaviləsində Türkiyə son dərəcə önəmli rola malikdir. Türkiyə Montro müqaviləsi ilə boğazlara nəzarət edir. Beləliklə, hər cür döyüş gəmiləri, eləcə də Rusiya hərbi gəmiləri buradan keçə bilmir. Bu, həqiqətən də balanslaşdırılmış, çoxqütblü xarici siyasətdir. Türk nüfuzunu və böyüklüyünü göstərən, millətçiliyi olan siyasətdir, bu, ərəb regionundan Cənubi Qafqaza, Şərqi Aralıq dənizinə qədər bütün bölgəyə yayılıb. Bu, nəhəng mürəkkəb şəbəkədir və bu, nəzarəti təmin edir.



Rəcəb Tayyib Ərdoğanı prezident seçkilərində qazandığı qələbəyə görə ilk təbrik edən lider Prezident İlham Əliyev oldu. Dövlətimizin başçısı bu qələbəni Türkiyə xalqının Rəcəb Tayyib Ərdoğanın həyata keçirdiyi siyasətə göstərdiyi etimad kimi dəyərləndirərək əmin oduğunu bildirdi ki, Rəcəb Tayyib Ərdoğanın liderliyi ilə növbəti illərdə də Türkiyənin hərtərəfli inkişafı davam etdiriləcək.

Dərin tarixi-mənəvi dəyərlərə söykənən Türkiyə-Azərbaycan əlaqələrinin qırılmaz tellərlə bağlılığı hər iki ölkənin inkişafına, tərəqqisinə, həmçinin regionda sülhün və əməkdaşlığın möhkəmlənməsinə böyük töhfələr verdiyi kimi, türk dünyasının birləşməsində həlledici rol oynayır. 2020-ci il sentyabrın 27-də erməni təxribatlarına qarşı şanlı ordumuzun güclü və sürətli əks-hücum əməliyyatı ilə başlayan müqəddəs Vətən müharibəsi Azərbaycanın böyük Qələbəsi ilə nəticələndi. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuz Qarabağı işğaldan azad edərək xalqımızı əzəli torpaqlarımıza qovuşdurdu. Bu qırx dörd gün müddətində qardaş Türkiyə Cümhuriyyəti hər zaman olduğundan daha çox Azərbaycanın yanında oldu. Prezident Rəcəb Tayyib Ərdoğan bunu bütün tribunalardan ən yüksək səslə təkrar-təkrar söyləməkdən çəkinmədi. Eyni zamanda, Vətən müharibəsindən sonra imzalanan Şuşa Bəyannaməsi ilə də iki qardaş ölkə arasındakı münasibətlər keyfiyyətcə yeni müstəviyə qalxdı. Məhz buna görə də mayın 28-də Türkiyədə olduğu kimi, Azərbaycanda da insanlar küçələrə axışaraq Zəfər yürüşləri etdilər.

2023-cü il iyunun 3-də Ankarada Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın səlahiyyətlərinin icrasına başlaması mərasimi keçirilib. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və xanımı Əminə Ərdoğan mərasimdə iştirak edən Azərbaycan Prezidenti İlham Əliyevi, birinci xanım Mehriban Əliyevanı, digər dövlət və hökumət başçılarını, nümayəndə heyətlərinin rəhbərlərini salamlayıblar.

Türkiyənin Dövlət Himni - "İstiqlal Marşı" səsləndirilməsindən sonra Rəcəb Tayyib Ərdoğan çıxış edərək, yenidən Prezident vəzifəsinə seçilməsi üçün ona etimad göstərən seçicilərə minnətdarlığını bildirdi. Mayın 28-də keçirilmiş seçkilərdə millətin iradəsinin əksini tapdığını, "Türkiyə yüzilliyi"nin başladığını və ölkənin sıçrayış mərhələsinin qapılarının açıldığını vurğulayan Prezident Rəcəb Tayyib Ərdoğan siyasi və dini baxışlarından, etnik mənsubiyyətindən asılı olmayaraq, 85 milyonluq əhalinin etimadını boşa çıxarmamaq üçün səylə çalışacaqlarını qeyd edib. Türkiyə Cümhuriyyətinin yaradılmasının 100-cü ildönümündə sarsılmaz həmrəyliyə daha böyük ehtiyac duyulduğunu diqqətə çatdıran dövlət başçısı bu gün elan olunacaq yeni hökumətlə birlikdə "Türkiyə yüzilliyi" istiqamətində səylə çalışacaqlarını bildirdi: "Gün bir olmaq, bərabər olmaq, min illik qardaşlığımızı daha da möhkəmləndirmək günüdür. Gün övladlarımızın aydın sabahlarına sahib çıxmaq günüdür... Birlikdə "Türkiyə yüzilliyi"nin inşası üçün çiyin-çiyinə çalışmalıyıq".

Türkiyə demokratiyasının bütün azadlıqların əksini tapdığı, mütərəqqi və əhatəli Konstitusiya ilə gücləndiriləcəyini qeyd edən Rəcəb Tayyib Ərdoğan növbəti beş il ərzində Türkiyə Respublikasının şanını və şərəfini qorumaq, etibarını artırmaq və adını dünyada daha da ucaltmaq üçün var gücü ilə çalışacaqlarını vurğulayıb. Prezident Rəcəb Tayyib Ərdoğan səlahiyyətlərinin icrasına başlaması mərasimində iştirak edən Azərbaycan Prezidenti İlham Əliyevə, digər dövlət, hökumət başçılarına və qonaqlara bir daha minnətdarlığını bildirib.

2023-cü il mayın 28-də türk xalqının düzgün qərarı, doğru seçimi və siyasi iradəsi ilə Türkiyədə keçirilən prezident seçkilərinin ikinci turunda Rəcəb Tayyib Ərdoğanın qazandığı qələbə həm də Azərbaycanın və bütünlüklə türk dünyasının Zəfəridir. Əminik ki, dostluğu, qardaşlığı, müttəfiqliyi dərin tarixi kökləri ilə bir-birinə möhkəm bağlı olan iki qardaş ölkə arasındakı münasibətlər prezidentlər İlham Əliyevin və Rəcəb Tayyib Ərdoğanın rəhbərliyi ilə bundan sonra da yüksələn xətlə inkişaf edəcək.

* * *

***Qeyd edək ki, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın adından mərasim iştirakçılarının şərəfinə şam yeməyi verilib.***

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tədbirdə iştirak ediblər.***

**Zahid Rza,**
**"İki sahil"**